UOT 338.436

*Arzu Nurəddin qızı RÜSTƏMOVA*
*i.f.d., Azərbaycan Kooperasiya Universiteti*

# AQRAR SEKTORDA KOOPERASİYANIN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR VƏ DÜNYA TƏCRÜBƏSİ

*Xülasə*

Kooperasiya sahəsində tarixi və nəzəri ədəbiyyatlarla tanışlıqdan məlum olur ki, ümumiyyətlə kooperasiya ideyası birgə fəaliyyət əsasında həyata keçirilən təsərrüfat proseslərinin məcmusu kimi xarakterizə olunur. Hal-hazırda kooperasiya nəzəriyyəsinin ən aparıcı problemlərindən biri kimi kooperativ müəssisələrinin bütövlükdə iqtisadi münasibətlər sistemində yerinin müəyyənləşdirilməsi hesab olunur.

**Tədqiqatın məqsədi -** aqrar sahədə struktur dəyişiklikləri və onların kooperasiyanın inkişafına təsiri, kooperasiyanın təşkili mexanizmlərinə təsir edən amillər, struktur siyasətindən ibarət olmasıdır.

**Tədqiqatın metodologiyası -** tədqiqat işində ümumi yeniliklər, müqayisəli təhlil, məntiqi ümumiləşdirilmə, sistemli yanaşma metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** beynəlxalq kooperativ hərəkatı, kooperasiya hərəkatına dəstək verən beynəlxalq qeyri-kooperativ strukturların təcrübəsi nəzərə alınmaqla kooperasiya sisteminə təsiri, aqrar sektorun maliyyələşdirilməsi problemləri əsas götürülmüşdür.

**Tədqiqatın nəticəsi -** nəticələrdən belə qənaətə gəlmək olar ki, kooperasiyanın təşkilinin dünya təcrübəsindən yararlanaraq qabaqcıl təcrübənin öyrənilməsi ölkəmiz üçün də faydalı ola bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** əksər ölkələrdə kooperativlərin yüksək səmərə ilə işləməsinin təşkilinin əsas prinsipləri, ölkədə kooperasiyanın səmərəliliyinin qaldırılması üçün kooperativ sahibkarlığın əsasında kənd təsərrüfatının idarə edilməsi nəzərdə tutulur.

***Açar sözlər: kooperativ müəssisələri, iqtisadi münasibətlər sistemi, beynəlxalq kooperativ hərəkatı, kooperasiyanın səmərəliliyi.***

## *Giriş*

Kooperasiya sahəsində tarixi və nəzəri ədəbiyyatlarla tanışlıqdan məlum olur ki, ümumiyyətlə kooperasiya ideyası birgə fəaliyyət əsasında həyata keçirilən təsərrüfat proseslərinin məcmusu kimi xarakterizə olunur. Tədqiqatlar göstərir ki, kooperasiya nəzəriyyəsi ilə bağlı problemin işlənməsi Qərbi Avropa ilə müqayisədə Rusiyada daha geniş köklərə malik olmuşdur. Kooperasiya hətta bazar iqtisadiyyatının kəskin şəkildə məhdudlaşdırıldığı keçmiş Sovetlər İttifaqında belə özünü təsərrüfat forması kimi qəbul etdirmişdir.

Kooperasiya münasibətlərinin sosial-iqtisadi inkişafda rolunun yüksəlməsinə adekvat olaraq artıq iqtisadiyyatda kooperativ kapital formalaşmışdır ki, bu da nəticə etibari ilə əmtəə istehsalçılarının və ticarət şəbəkələrinin kooperativ mənfəət əldə etməsinə gətirib çıxarmışdır. Məhz bu deyilənlərə müvafiq olaraq kooperasiya münasibətlərinin və bütövlüklə kooperativlərin nəzəri aspektləri işlənib hazırlanmış, artıq kooperasiya hərəkatı təşkilati struktur kimi fəaliyyət göstərməyə başlamışdır.

Kooperasiya formalarının ümumi cəhəti ondan ibarətdir ki, onlar payçıların sərmayə qoyduğu kapitala görə daha çox mənfəət əldə etməyə çalışmaqla payçı üzvlərin fəaliyyətini maddi cəhətdən mümkün qədər çox maraqlandırmalıdır. Kooperativlərin sosial təbiəti, öz fəaliyyətində rəhbər tutduğu kooperativ prinsiplər onları kommersiya strukturlarından əhəmiyyətli dərəcədə fərqləndirir. Odur ki, kredit kooperativləri adətən xalis kommersiya strukturu hesab edilmir.

**Aqrar sahədə müəyyən struktur dəyişikliklər**

Bildiyimiz kimi aqrar sahə öz inkişafında yarandığı vaxtdan indiyə qədər bir neçə mərhələ keçmişdir. Bütün hallarda onların əsasında əməyin ictimai bölgüsü və sahələrarası əlaqələrin inkişaf

dərəcəsi dururdu. Aqrar sahə kənd təsərrüfatı məhsullarının istehsalını, saxlanmasını, emalını və onun hazır vəziyyətdə istehlakçıya çatdırılması funksiyalarını yerinə yetirən təsərrüfatçılığın iqtisadi və texnoloji cəhətdən bağlı sahələrinin məcmusundan ibarətdir. O inkişafının yüksək mərhələsində və mikrosəviyyədə kooperasiyanın yüksək formasına çevrilə bilər.

Struktura görə aqrar sahə iqtisadiyyatın bu sektorunda ardıcıllıqla gələn iqtisadi və texnoloji bloklardan ibarətdir. Bu kənd təsərrüfatının maddi texniki ehtiyatlarla təchizatından tutmuş son məhsulun alışını daxil edir.

Alimlərimizin təhlilləri göstərir ki, aqrar sahənin gələcək inkişafı istehsalın üfiqi və şaquli kooperasiya yolu ilə sənayeləşdirilməsindən və innovativ texnologiyaların geniş tətbiqindən asılıdır. Tarixi baxımdan bu üç dövrə bölünür; kənd təsərrüfatı istehsalının və ilkin ibtidai kooperativ formalarının daxil olduğu emal sənayesinin inkişaf dövrü, kənd təsərrüfatının kooperasiyasında nisbətən geriliyi ilə xarakterizə olunan sahələrin intensiv inkişaf dövrü, kənd təsərrüfatının maddi-texniki bazasının innovativ inkişaf dövründə kooperasiyanın yeni spesifik formaları ilə sənayeləşmə və kompüterləşmə tipində istehsala çevrilməsi dövrü. [3 səh. 99-100].

Buradan da aydın olur ki, kənd təsərrüfatının son nəticəsi onun çoxtərəfli istehsal kooperasiyasının miqyası ilə müəyyən olunur.

Ərzaq bazarının formalaşması və onun etibarlı təchizatı aqrar sahənin, o cümlədən kooperasiyanın inkişaf səviyyəsindən çox asılıdır. Bunun üçün istehsal və əmək ehtiyatlarının üzə çıxarılması, aqrar istehsalın inkişafına təsir edən kooperasiyanın strateji istiqamətlərini daha dəqiq təyin etməyə imkan verən təşkilati mexanizmlərin əsas amillərinin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Tədqiqatlar göstərir ki, hazırda daxili və xarici amillərdən asılı olaraq təsərrüfatçılığın kooperativ formaları üçün qeyri-sabit inkişaf və istehsalın aşağı rentabellik səviyyəsi xasdır. Bu xüsusilə istehsal kooperativlərinə aid edilməlidir. Bu hal onların təsərrüfat fəaliyyətinə, səmərəliliyinə və amillərinin qiymətləndirilməsinə təsir edən səbəblərin müəyyənləşdirilməsinin vacibliyini şərtləndirir.

İstehsal və istehlak kooperativlərinin dinamik inkişafı digər qarşılıqlı sahələrin işlənməsinin kompleks problemlərinin həlli ilə bağlıdır. Bu, xüsusilə aqrar sektorun digər sahələrinin təşkilati-iqtisadi əlaqələrinin səviyyəsindən daha çox asılıdır.

Məlum olduğu kimi islahatların başlanğıcında artıq aqrar iqtisadiyyatın sahələri (rayon aqrar-sənaye birliklərinin, aqrofirmaların, kombinatların, təsərrüfatlararası müəssisələrin və s.) arasında olan kooperasiya əlaqələri əsasən itirilmişdir. Şəxsi mülkiyyətçiliyin əsasında sərbəst qiymət qoymaq imkanı olan yeni istehsal və xidmət strukturlarının yaradılması ilə əlaqədar olaraq kooperasiya iştirakçıları arasında ziddiyyətlər kəskinləşmişdir. İnstitusional dəyişikliklərin gedişində emal və xidmət müəssisələri tərəfindən onlara qarşı edilən inhisarçı hərəkətlər sayəsində kənd istehsalçılarının maraqları sıxışdırılmışdır. Bu da nəticə etibarı ilə alınan mallara və göstərilən xidmətlərə, həmçinin əldə edilən maddi-texniki ehtiyatlara qoyulan qiymətlərdə özünü göstərirdi.

Alim A.V.Tkaç qeyd edirdi ki, aparılan islahatlar başlıca vəzifəni yüksək gəlirliliyi, rəqabətqabiliyyətliliyi, kənd təsərrüfatı əmtəə istehsalının, yaxud bu istiqamətdə cuzi də olsa hər hansı bir tərpəniş üçün “şəraitin yaradılmasını” təmin etməmişdir. Halbuki, aparılan islahatların ideologiyası keyfiyyət göstəricilərinin məcburi yaxşılaşdırılması ilə yanaşı, ölkədə kənd təsərrüfatı məhsullarının istehsal həcminin saxlanmasını, təmin etməli idi. [4, s. 18-21]

İstər maddi istehsal sahəsində, istərsə də sosial-iqtisadi münasibətlər sistemində təsərrüfatçılığın kooperativ qurumlarına mürəkkəb sosial-iqtisadi kateqoriya kimi baxılır. Kooperasiyada bu proseslərin səmərəliliyi bütün amillərin istehsalın səmərəliliyinə və təkrar istehsala etdiyi təsirlərdən asılıdır.

Öz növbəsində kooperasiyanın səmərəliliyi sahələrarası qarşılıqlı əlaqələrin daha da dərinləşməsinə, istehsalın və əmək məhsuldarlığının həcminin artmasına, ərzaq bazarında məhsulun rəqabət qabiliyyətinin yüksəlməsinə, maddi-texniki bazanın möhkəmlənməsinə, innovativ proseslərin fəallaşmasına, kooperasiya iştirakçılarının həyat səviyyəsinin yüksəlməsinə təsir göstərəcəkdir.

**Kooperasiyanın davamlılığını təyin edən amillər**

Kooperasiyanın səmərəliliyinə təsir göstərən çoxlu sayda amilləri iki – daxili və xarici qrupa bölmək olar. Xarici amillər obyektiv xarakter daşımaqla, kooperativ təşkilatların idarəsindən asılı olmayaraq formalaşan şərtləri müəyyən edir. Bilavasitə idarəetməyə aid olan bu amillər rəqabət mühitinin yaradılmasına və dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsinə yönəlmişdir. Hər bir kooperativin rəhbəri bu amilləri təşkilatın xeyrinə istifadə edilməsi üçün nəzərə almalıdır.

Daxili, yaxud subyektiv amillər kooperasiya iştirakçısının iradəsilə formalaşmaqla ən yüksək nəticənin-məhsulun maya dəyərinin azaldılması və daha çox gəlirin götürülməsi məqsədini daşıyır. Daxili amillərə aşağıdakıları aid etmək məqsədəuyğundur: təşkilati-istehsal strukturu, marketinq və logistikanı, çevik idarəetməni, əməyin təşkilini və nəzarəti, iqtisadi münasibətləri və təsərrüfat hesabını, istehsalın texnologiyasını, innovativliyin fəallaşdırılmasını, əməyin motivləşdirilməsini, kollektivin sosial inkişafını.

Xarici amillərə aiddir: dövlətin aqrar siyasəti, ölkə və yerli normativ aktların işlənib hazırlanması, təbii-iqtisadi şərait, torpaq və əmək ehtiyatlarının olması, daxili və xarici bazarın tənzimlənmə mexanizmi, qiymət münasibətlərinin dövlət tənzimlənməsi, maliyyə-kredit mexanizmi və siğorta sistemi.

Kənd təsərrüfatı kooperaiyasının davamlılığını təyin edən amillər bunlardır: xarici mühit amilləri; dövlət siyasəti, siyasi sabitsizlik; xarici amillərin bir başqa qrupu; maliyyə, informasiya maddi-texniki təchizatlar, istehsalçılar, dövlət hakimiyyət və idarəetmə oqranları, yerli inzibati orqanlar, rəqabətçilər, kütləvi informasiya vasitələrinin auditoriyaları.

Xarici amillərin dolayı qrupu, iqtisadiyyatın vəziyyəti. Sosioloji-siyasi, demoqrafik, mədəni, tarixi, normativ-hüquqi, təbii və s. amillər.

Daxili mühit amilləri. Daxili amillərin birincin qrupu: təşkilati-idarəetmə,təşkilati-struktur, marketinq, çevik idarəetmə, texnologiya, kadrlar, əməyin motivləşdirilməsi, innovativlik.

Daxili amillərin ikinci qrupu: məhsulun həcmi, çeşidi strukturu, keyfiyyəti, maya dəyəri, təminat, infrastruktur.

İstehsalın ekologiyası. Göründüyü kimi, daxili və xarici amillər biri digəri ilə qarşılıqlı asılı olduğundan onları ayrılıqda sərbəst qruplara ayırmaq mümkün deyildir.

Kooperasiyanın inkişafını stimullaşdıran amillərin içərisində məhsulun istehsalçılardan istehlakçılara hərəkəti zamanı qarşılıqlı maraqlar nəzərə alınmaqla, kənd təsərrüfatı ilə emal sənayesinin arasında olan əlaqələrin bərpasına təkan verən xidmətlərin yaradılmasına xüsusi yer verilməlidir. Bundan başqa, təsərrüfatlararası kooperativ formalaşmaların yaradılması prosesini fəallaşdırmaq lazımdır. Təcrübə göstərir ki, belə kooperasiyanın xüsusilə rayon və rayonlararası səviyyədə təşkili istehsaln intensivliyini və əmək məhsuldarlığını qaldırmağa imkan verir.

Kooperativ formalarının inkişafında kooperasiya iştirakçıları arasında özünümaliyyələşdirmə prinsiplərinin inkişaf etdirilməsi və marketinq xidmətlərinin fəaliyyətinin aktivləşdirilməsi mühüm rol oynayır.

Kənd təsərrüfatı inkişaf etdikcə müvafiq emal müəssisələri də tikilib istifadəyə verilmiş ayrı-ayrı sahələr üzrə emal sənayesi sahələr üzrə xidmət, tədarük və satış qurumlarının yaradılması ilə də müşayiət olunmuşdur. Beləliklə, ölkədə istehsal, emal və satış sahələri formalaşmış və müəssisələrarası əlverişli kooperasiya və inteqrasiya əlaqələri inkişaf etmişdir.

Akademik Z.Ə.Səmədzadənin fikrincə, inkişaf etmiş ölkələr aqrar sahənin texniki səviyyəsinin, əməyin istehsal fondları ilə silahlanmasının yüksəkliyi ilə fərqlənirlər ki, bu faktor da əmək məhsuldarlığı, mənfəətlilik səviyyəsinin yüksək olmasına ciddi təsir etmiş olur. İnkişaf etməkdə olan ölkələrdə isə aqrar sahənin tərkibində bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalı aparıcı rol oynayır ki, bu sahədə aşağı məhsuldarlıq primitiv texnologiyaların tətbiqilə xarakterizə olunur [5, s. 982]

**Kənd təsərrüfatının maliyyələşməsi problemləri**

Ölkədə kəndlilər və istehsalçılar baxımından ən böyük problem nağd pul dövriyyəsinin bəzi hallarda çatışmamasıdır. Kənd Təsərrüfatı Nazirliyi regionlarda kredit mərkəzləri yaradırlar. Yal-

nız bu yolla əkinçilik üçün lazımi istehsal vasitələrinin alınmasındakı əngəllər və çatışmamazlıqlar aradan qaldırıla bilər. Cənab Prezident İ.Əliyev tərəfindən “Regionların İnkişaf Proqramları” çərçivəsində fermerlərə yönəlik kredit verilməsinə başlanması atılan addımlardan ən mühümüdür.

Azərbaycan kənd təsərrüfatı sektorunda mövcud olan problemləri aradan qaldırdıqdan sonra kənd təsərrüfatı baxımından gələcəyi parlaq görünür. Çünki Azərbaycanın iqlim və torpaq şərtləri yüksək keyfiyyətdə məhsul istehsalına imkan yaradır. İstehsal sahəsində də məhsuldarlığı artırmaq mümkün olacaqdır.

Damazlıq toxum, süni gübrə, dərman, avadanlıq kimi istehsal vasitələrinin əldə olunmasında və bazara çıxmaqla bağlı yaşanan problemlərin aradan qaldırılmasından sonra kənd təsərrüfatı sektorunda böyük bir inkişafın yaşanması mümkündür.

Kənd təsərrüfatı sektorunun iqtisadiyyatdakı üstünlüyü azalarkən işçi qüvvəsinin önəmli bir hissəsini işlə təmin etməyə davam edən kənd təsərrüfatı sektorunda bəzi islahatların aparılması hələ də davam etdirilir. Bu məqsədlə lazımi infrastruktur yaxşılaşdırılır., təhsil, araşdırma fəaliyyətləri, özəl sektor sahibkarlığı dəstəklənir, fermerlərə texnika və avadanlıq köməkliyi göstərilir, Kənd Təsərrüfatı Nazirliyi yenidən təşkilatlandırılaraq ölkənin aqrar siyasətinin gücləndirilməsində təsir imkanlarının artırılması nəzərdə tutulur.

**Kooperasiyanın təşkilinin dünya təcrübəsi**

Kooperasiyada sahibkarlığın inkişaf etdirilməsi sahəsində xarici təcrübənin təhlili yolu ilə onun Azərbaycan şəraitinə uyğunlaşdırılması müxtəlif ölkələrin kooperasiya modellərinin səmərəliliyini və dəyərini qiymətləndirməyə imkan verir, çünki qabaqcıl təcrübənin öyrənilməsi ölkəmiz üçün faydalı ola bilər.

İnkişaf etmiş ölkələrdən İsveçdə, Norveçdə, Fransada, Almaniyada, Yaponiyada, ABŞ-da, Kanadada və Avropanın digər ölkələrində kooperativlər əhalinin ərzaq təminatında böyük rol oynayırlar. Onlar uzun dövr keçmiş fəaliyyətinin gedişində əhəmiyyətli təcrübə toplamışlar.

Dünya kooperativ hərəkatının xüsusiyyətlərinin təhlili göstərir ki, o, keçən əsrdə azsaylı kooperativlərlə start götürməklə, hazırda keyfiyyətcə yeni xarakter daşıyan formaların və üsulların geniş spektri ilə xarakterizə olunurlar.

İqtisadi baxımdan inkişaf etmiş ölkələr üçün kredit, satış, təchizat və emal kooperasiyası xasdır. Finlandiyada, İsveçdə, Norveçdə kənd təsərrüfatı məhsullarının 70%-dən çoxu kooperativlər vasitəsilə ixrac olunur. Bu ölkələr emal və xidmət sahəsində geniş kooperativ fəaliyyəti ilə fərqlənirlər. Xüsusilə kənd təsərrüfatı kooperativlərində artım surəti daha da yüksəkdir. Bu da onların getdikcə möhkəmləndirilməsini göstərir. Burada kooperativlərin həm üfiqi, həm də şaquli inteqrasiyası gedir.

Beləliklə, xarici ölkələrdə kooperativ hərəkatı kifayət qədər geniş yayılmışdır. Aqrar sənaye istehsalın sahələri ilə qarşılıqlı münasibətlər sistemində mühüm yer tutur. Kənd təsərrüfatında kooperasiyanın müxtəlif formalarda geniş yayılmasının səbəbi ondadır ki, o istehsal və xidmət sahələrində kooperasiyanın səmərəli formasıdır.

## *Nəticə*

Aqrar sahədə kooperasiya formalarının inkişafına təkan verməklə, dövlətin iqtisadi strukturlarının dəstəyi ilə fermerlərin və fərdi yardımçı təsərrüfatlarının kooperasiyaya maraqlarının artması müşahidə olunur.

Ölkədə kənd təsərrüfatı istehsalının səmərəliliyinin qaldırılması perspektivinə baxarkən, xarici təcrübənin müsbət tərəflərinin Azərbaycanda tətbiqi, kənd təsərrüfatının idarəetmə mexanizminin təkmilləşdirilməsi istiqamətində istifadə mümkünlüyünü misal göstərmək olar.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial - iqtisadi inkişafı Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il 118 saylı Fərmanı ilə təsdiq edilmişdir.

2. “Kənd təsərrüfatı kooperasiyası haqqında” Azərbaycan Respublikasının Qanunu. 14 iyun 2016-cı il.
3. E.Quliyev, B.Ataşov, E.Ələkbərov. Kooperasiya hərəkatı, təkamülü, mövcud durumu və inkişaf meyilləri. [ s.99-100].
4. Ткоч А.В., Третьякова Т. Потребительская кооперация в жизни села. Экономика сельского хозяйства, Москва, 2007 [№1.с. 18-21].
5. Səmədzadə Z.Ə. Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri. Monoqrafiya. Bakı-2010 s.982.
6. İsrafilov H.A.Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri.

***Арзу Нураддин кызы Рустамова***
***д.ф.э., Азербайджанский Университет Кооперации***

**Факторы, влияющие на развитие кооперации в аграрном секторе и мировой опыт**

***Резюме***

По знакомству в исторической и теоретической литературе в области кооперации видно, что в целом идея кооперации характеризуется как совокупность хозяйственных процессов, осуществляемых на основе совместной деятельности. В настоящее время одной из ведущих проблем теории кооперации является определение места кооперативных предприятий в системе экономических отношений.

***Цель исследования*** – структурная политика состоит из структурных изменений в аграрном секторе и их влияния на развитие кооперации, факторов, влияющих на механизмы кооперации.

***Методология исследования -*** в работе использованы общие нововедения, сравнительный анализ, логическое обобщение, методы системного подхода.

***Применение исследования – важность -*** международное кооперативное движение, влияние на кооперативную систему с учетом опыта международных некооперативных структур, поддерживающих кооперативное движение, проблемы финансирования аграрного сектора.

***Результаты исследований -*** по результатам можно сделать вывод, что изучение лучших практик с использованием мирового опыта организации кооперации может быть полезно для нашей страны.

***Оригинальность и научная новизна исследования -***в большинстве стран работа кооперативов с высокой эффективностью основные принципы их организации для повышения эффективности кооперации в стране предусматривается управление сельским хозяйством на основе кооперативного предпринимательства.

***Ключевые слова: кооперативные предприятия; система экономических отношений; международное кооперативное движение; эффективность кооперации.***

***Arzu Nuraddin Rustamova***
***PhD., Azerbaijan University of Cooperation***

**Factors influencing the development of cooperation in the agricultural sector and world experience**

***Summary***

An acquaintance in the historical and theoretical literature in the field of cooperation shows that, in general, the idea of cooperation is characterized as a set of economic processes carried out

on the basis of joint activities. Currently, one of the leading problems in the theory of cooperation is the determination of the place of cooperative enterprises in the system of economic relations.

***Purpose of research-*** structural policy consists of structural changes in the agricultural sector and their impact on the development of cooperation, factors affecting the mechanisms of cooperation.

***Research methodology -*** the work uses general innovations, comparative analysis, logical generalization, methods of a systematic approach.

***Research Application – importance -*** the international cooperative movement, the impact on the cooperative system, taking into account the experience of international non-cooperative structures supporting the cooperative movement, the problems of financing the agricultural sector.

***Research results -***based on the results, it can be concluded that studying the best practices using the world experience of organizing cooperation can be useful for our country.

***Originality and scientific novelty of the research*** - in most countries, the work of cooperatives with high efficiency, the basic principles of their organization to increase the efficiency of cooperation in the country provides for the management of agriculture on the basis of cooperative entrepreneurship.

***Key words: cooperative enterprises; the system of economic relations; international cooperative movement; the effectiveness of cooperation.***